

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 138 (24.025)

26 iyul 2022-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Araz Əhmədovu Masallı Rayon İcra Hakimiyyətinin başçısı, Əkbər Abbasovu Lerik Rayon İcra Hakimiyyətinin başçısı və Elvin Paşayevi Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib. Dövlətimizin başçısı görüşdə çıxış edərək bildirib ki, korrupsiyaya, rüşvətxorluğa qarşı amansız mübarizə aparmaqda icra başçıları nümunə olmalıdırlar. Fəaliyyətdə sosial ədalət prinsipinə əməl edilməlidir. Şəhid ailələrinə xüsusi diqqət göstərilməlidir. Rayonların inkişafı ilə bağlı icra başçıları özləri təşəbbüs göstərməlidirlər. Göygöl, Masallı və Lerik rayonlarını, sözün əsl mənasında, turizm mərkəzinə çevirmək əsas vəzifələrdən biridir. Eyni zamanda hər üç rayonda müasir tələblərə uyğun kənd təsərrüfatı yaradılmalıdır.

Prezident İlham Əliyev deyib: “Bir daha demək istəyirəm, sizə böyük etimad göstərilir. Mən hesab edirəm ki, son vaxtlar ölkəmizdə gedən çoxşaxəli islahatlar, o cümlədən idarəetmə sahəsində aparılan islahatlar, həmçinin kadr islahatları bütün Azərbaycan ictimaiyyətinə bizim siyasətimizi göstərir, bizim niyyətimizi göstərir”.

Rayonların yeni təyin olunan icra hakimiyyətlərinin başçıları onlara göstərilən böyük etimada görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər, bu etimadı doğrultmaq üçün tam məsuliyyətlə çalışacaqlarını bildiriblər.



## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələr müəyyənləşdirilib və yarım ilin yekunları müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələrə və yarım ilin yekunlarına həsr olunan kollegiya iclası keçirilib. İclası giriş sözü ilə nazir Mayis Əliyev açıb. Qeyd olunub ki, hesabat dövründə muxtar respublika ərazisində nazirlik, idarə və müəssisələr, rayon, şəhər icra hakimiyyətləri və vətəndaşlar tərəfindən, ümumilikdə, 232,0 hektar sahədə meşəsalma, meşəbərpa işləri aparılıb, yeni meyvə bağları salınıb, toxumla əkin aparılıb. Əkin işlərində, ümumilikdə, 150 min ədəd meyvə, meşə, həmişəyaşıl tingləri, üzüm, bəzək və gül kolları əkilib. Hesabat yarım ilində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 120 hektar sahədə meşəsalma, meşəbərpa işləri aparılıb, yeni meyvə bağları salınıb, toxumla əkin işləri görülüb.

Qeyd olunub ki, muxtar respublikada ətraf mühitin mühafizəsi, yaşıllıqların qorunması və artırılması məqsədilə aparılan yaşıllaşdırma tədbirlərində 4,6 hektarı üzüm olmaqla, 55,6 hektar sahədə meyvə bağı, yaşıllıq zolaqları salınıb. Meyvə bağlarının salınmasında yerli sortlara üstünlük verilib, əsasən, badam, cəviz, üzüm, tut, ərik, alma, tinglərindən istifadə olunub. Həyata keçirilmiş tədbirlərin nəticəsidir ki, bu gün tinglik sahələrdə 350 min ədəddən artıq meyvə tingləri mövcuddur.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 mart tarixli 64 nömrəli qərarlarına uyğun olaraq 2022-ci ilin birinci yarısında 177 müəssisəyə 436464 manat ekoloji ödəniş tətbiq olunub, 219884 manat ödəmə aparılıb. Cari ilin birinci yarısında təbii ehtiyatlardan istifadəyə və çirkləndirici maddələrin ətraf mühitə atılmasına görə isə 172 müəssisəyə 104172 manat ekoloji ödəniş tətbiq olunub, 46622 manat vəsaitin toplanması təmin edilib. Mineral xammal bazasının bərpasına ayırmalara görə 21 müəssisəyə 293033 manat ödəmə tətbiq edilib və 139978 manat nazirliyin xüsusi hesabına ekoloji ödəniş həyata keçirilib. 140 müəssisə tərəfindən atmosferə atılan tullantılara görə xüsusi icazə sənədinin alınması üçün nazirliyə müraciət olunub və 20493 manat ödəniş haqqı nazirliyin xüsusi hesabına ödənilib.

Nazir qeyd edib ki, “Meşə fondu sahələrindən elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri üçün istifadə Qaydaları”na uyğun olaraq meşə fondu sahələrində ictimai iaşə xidməti göstərən 4 fiziki şəxslə müqavilə bağlanılıb, 6906 manat icarə haqqı təyin olunub. Bu günədək 6591 manat ödəmə aparılıb.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.

* * *



Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində 2022-ci ilin ilk altı ayı ərzində görülmüş işlər və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən kollegiya iclasında xidmətin rəisi Bəxtiyar İsmayılov çıxış edib. Bildirib ki, 2022-ci ilin ilk altı ayı ərzində, ümumilikdə, məhsul nümunələrinin 397 halda, o cümlədən qida məhsullarının 351 halda keyfiyyət və təhlükəsizlik göstəricilərinin yoxlanılması təmin olunub və bu istiqamətdə ciddi nöqsanlar aşkar edilməyib.

Qeyd edilib ki, muxtar respublika iqtisadiyyatının bütün sahələrində sürətli inkişafın təmin olunması məqsədilə təsdiq edilmiş Dövlət proqramlarının icrası istiqamətində fəaliyyət 2022-ci ilin ilk altı ayı ərzində də davam etdirilib. Belə ki, ayrı-ayrı Dövlət proqramlarının müvafiq bəndlərinin icrası təmin olunub, sahibkarlıq subyektləri və ailə təsərrüfatları üçün maarifləndirici seminarlar keçirilib, arıçılıq məhsullarının 3, meyvə-tərəvəz məhsullarının 84, emal olunmuş kənd təsərrüfatı məhsullarının 115 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılıb, nəticələrin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğun olduğu müəyyən edilib.

Vurğulanıb ki, cari ilin ilk altı ayı ərzində ixrac potensiallı məhsulların 82 halda (57 uyğunluq, 25 qida təhlükəsizliyi sertifikatı) sertifikatlaşdırılması həyata keçirilib, 17 adda əmtəə nişanının qeydiyyata alınması üçün icra proseduru başlanılıb və əmtəə nişanının mühafizəsi barədə 20 şəhadətnamə iddiaçılara təhvil verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2022-ci ilin Naxçıvan Muxtar Respublikasında “Sənaye ili” elan edilməsinə dair Tədbirlər Planı”nın icrası istiqamətində cari ilin 17 yanvar-30 iyun tarixləri ərzində sənaye məhsullarının, ümumilikdə, 331 halda (ərzaq məhsullarının 291, qeyri-ərzaq məhsullarının 40 halda) laboratoriya analizləri aparılıb və bu istiqamətdə nöqsan aşkar edilməyib. 2022-ci ilin 17 yanvar-30 iyun tarixləri ərzində İqtisadiyyat Nazirliyi ilə birgə muxtar respublikada fəaliyyət göstərən 96 istehsal müəssisəsində görüşlər keçirilib, ISO beynəlxalq standartların tətbiqi, əmtəə nişanlarının beynəlxalq sistem vasitəsilə qeydiyyatı ilə bağlı məlumatlar çatdırılıb, müəssisələrə standartlaşdırma üzrə dəstək göstərilib, istehsal sahələrinə uyğun müvafiq standartlardan 326 halda çıxarışlar təqdim edilib.

Sonra çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi arasında gələcək əməkdaşlıq məsələləri müzakirə olunub



Bu münasibətlə keçirilən görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və başçılıq etdiyi nümayəndə heyətini salamlayaraq qonaqları universitetdə görməkdən məmnunluğunu ifadə edib. Rektor ali təhsil ocağında informasiya-kommunikasiya texnologiyaları sahəsində həyata keçirilən işlər və ali təhsil ocağında qurulan Texnopark və onun fəaliyyət sahələri barədə məlumat verib. Qeyd olunub ki, universitetdə İnformasiya texnologiyaları, Kompüter mühəndisliyi, Elektrik və elektronika mühəndisliyi, Proseslərin avtomatlaşdırılması mühəndisliyi və Riyaziyyat və informatika müəllimliyi olmaqla, ümumilikdə, 5 ixtisas üzrə informasiya-kommunikasiya texnologiyaları sahəsində kadr hazırlığı həyata keçirilir. Bundan başqa, müvafiq ixtisaslarda Nanotexnologiyalar fənninin tədris planına salınması istiqamətində lazımi işlərin görüldüyünü və yeni tədris ilindən bu sahədə tədrisin aparılacağı diqqətə çatdırılıb.

Görüşdə Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev İKT sahəsində yüksəkixtisaslı mütəxəssislərin hazırlanması imkanları və bu prosesdə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin verə biləcəyi dəstək haqqında danışıb.

Görüş zamanı gələcək əməkdaşlığa dair atılacaq konkret addımlar müzakirə olunub.

**Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi**

## Vayxır kəndində tikinti-quruculuq işləri aparılır



Muxtar respublikamızda insanların rifahını yaxşılaşdırmaq, onların həyat şəraitini, yaşayış səviyyəsini yüksəltmək üçün kompleks tikinti-quruculuq işləri həyata keçirilir, yeni park, xiyabanlar salınır, mənzillər istifadəyə verilir, sosial xidmət mərkəzləri, tibb məntəqələri tikilir. Sözügedən layihələrin uğurla icra olunduğu muxtar diyarımızda artıq üzü sərhəd məntəqələrinə doğru yol aldıqca ən ucqar kəndlərimizdə, qəsəbələrimizdə belə müasir görkəmli tikililər həm insanın zövqünü oxşayır, həm də məmləkətimizdə şəhərlə kənd fərqinin aradan qalxmasını, kəndlərimizin də şəhərlərimiz kimi müasir görkəmə qovuşmasını bir daha təsdiq edir.



Adıçəkilən uğurlu proseslərin icra olunduğu Babək rayonunun Vayxır kəndində də tikinti-quruculuq işləri sürətlə davam etdirilir. Kənd mərkəzi üçün inşa olunan üçmərtəbəli inzibati binanın birinci mərtəbəsində icra nümayəndəliyi və həkim ambulatoriyası üzrə müvafiq otaqlar, o cümlədən manipulyasiya-peyvənd otağı, aptek, baş həkim otağı, stomatoloq kabinəsi, doğuş otağı, palata və polis bölməsi yerləşəcəkdir. İkinci mərtəbədə kitabxana, arxiv, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı üçün otaq, baytar otağı, üçüncü mərtəbədə isə icra nümayəndəliyi, təsərrüfat otağı və klub yerləşəcək. Binanın həyətində isə abadlıq işləri görüləcək, həmişəyaşıl dekorativ bitkilər əkiləcək.

Tikintisi davam etdirilən xidmət mərkəzi binasında isə bərbər, gözəllik salonu, anbar, market, təsərrüfat malları və ət satışı mağazalarının yerləşdirilməsi nəzərdə tutulub.

Ümumi ərazisi genişləndirilən Vayxır kənd tam orta məktəb binasında da bərpa işləri sürətlə davam etdirilir.

Qeyd edək ki, tikinti işlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon Tikinti İdarəsi həyata keçirməkdədir. Bununla belə inşaat ünvanlarına kifayət qədər texnika cəlb olunub. Vahid layihə əsasında inşa edilən obyektlərdə yerli tikinti materiallarından istifadəyə üstünlük verilir.

Yeni qurulacaq obyektlər kəndin simasını dəyişməklə bərabər sakinlərin rahatlığına da öz təsirini göstərəcək.

**Məcid RƏŞADƏTOĞLU**

# Yarım ilin yekunları müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətində cari ilin ilk yarım ilinin yekunları və qarşıda duran vəzifələrlə bağlı keçirilən tədbiri giriş sözü ilə xidmət rəisi Namiq Paşayev açıb. Bildirmişdir ki, 2022-ci ilin birinci yarısında elektrik stansiyalarında, rayon (şəhər) elektrik şəbəkələrində elektrik enerjisinin istehsalı, ötürülməsi və paylanması qurğularında cari təmir işləri aparılmış, yeni elektrik xətləri çəkilmişdir. Bununla yanaşı, yüksək və aşağıgərginlikli elektrik şəbəkələrində elektrik enerjisinin ötürülməsində texniki itkilərin azaldılması və etibarlılığının artırılması məqsədilə yeni texnoloji avadanlıqlar alınmış, istismar müddəti keçmiş qurğu və avadanlıqlar, eyni zamanda 110, 35, 10 kilovoltluq və aşağıgərginlikli elektrik verilişi xətlərində yararsız hala düşmüş məftillər və izolyatorlar yenisi ilə əvəz edilmiş, yanğına qarşı mühafizə tədbirləri gücləndirilmişdir.

Məlumat verilmişdir ki, 6 ay ərzində muxtar respublikanın elektrik stansiyalarında cəmi 210902,8 min kilovat-saat elektrik enerjisi istehsal olunmuşdur. 2022-ci ilin birinci yarısında muxtar respublikanın elektrik şəbəkələrinə 223 677 271 kilovat-saat elektrik enerjisi daxil olmuşdur, bunun 15 584 000 kilovat-saatı İran İslam Respublikasından alınmış, 26 285 200 kilovat-saatı Araz Su Elektrik Stansiyasında, 19 349 000 kilovat-saatı Biləv Su Elektrik Stansiyasında, 13 556 300 kilovat-saatı "Arpaçay-1" Su Elektrik Stansiyasında, 376 300 kilovat-saatı "Arpaçay-2" Su Elektrik Stansiyasında, 2 271 700 kilovat-saatı Heydər Əliyev Su Anbarı üzərindəki Su Elektrik Stansiyasında, 117 977 000 kilovat-saatı Naxçıvan Modul Elektrik Stansiyasında, 129 511 kilovat-saatı Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında, 28 148 260 kilovat-saatı Naxçıvan Günəş Elektrik Stansiyasında istehsal edilib elektrik şəbəkələrinə ötürülmüşdür. 2022-ci ilin birinci yarısında İran İslam Respublikasına 15 714 000 kilovat-saat elektrik enerjisi verilmişdir. Naxçıvan Muxtar Respublikası üzrə quraşdırılan bütün növ elektrik sayğaclarının sayı 1 iyul 2022-ci il tarixə 97 989 ədəd olmuşdur.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamından irəli gələn vəzifələrin icrası istiqamətində enerji istehsalı prosesləri, yeni texnologiyaların tətbiqi, alternativ və bərpa olunan enerji sahəsində inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsi, praktik biliklərin artırılması üçün cari ilin may ayında Naxçıvan Dövlət Universitetinin Elektroenergetika mühəndisliyi ixtisasının müəllim və tələbələri, Dövlət Energetika Xidmətinin mühəndislərindən ibarət 10 nəfərlik heyət İtaliya Respublikasında istehsalat təcrübəsində olmuşlar. Bununla belə, İsveçrənin "Pure Energy Development Sarl" şirkətinin dəvəti əsasında baş tutan səfər çərçivəsində muxtar respublikanı təmsil edən heyət İtaliyanın günəş invertorları üzrə ixtisaslaşmış FIMER şirkətinin təlim mərkəzində olmuşdur.

İclas məruzə ətrafında çıxışlarla davam edib.

* * *

Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsində keçirilən kollegiya iclasını idarənin sədri Elçin Əliyev açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, muxtar respublikada fəaliyyət göstərən banklar və digər kredit təşkilatları tərəfindən 1 iyul 2022-ci il tarixə iqtisadiyyata yönəldilən kredit qoyuluşu 290 milyon 510 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 14 milyon 567 min manat, uzunmüddətli kredit qoyuluşu isə 275 milyon 943 min manat təşkil edib. Həmçinin bank sektoru tərəfindən 141 milyon 222 min manat kredit verilib. Verilmiş kreditlərin 8 milyon 861 min manatı kənd təsərrüfatı, 8 milyon 501 min manatı sənaye, 7 milyon 20 min manatı kommersiya, 4 milyon 767 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin, 112 milyon 73 min manatı isə digər kommunal, sosial və istehlak kreditlərinin payına düşüb. Hesabat dövründə muxtar respublika üzrə, ümumilikdə, 107 nəfərə 4 milyon 768 min manat ipoteka krediti verilib. 2022-ci ilin yanvar-iyun ayları ərzində banklara 108 milyon 817 min manat kredit borcu qaytarılıb, 26 min 707 müştəriyə yeni bank hesabı açılıb.

Qeyd olunub ki, hesabat dövründə aparılan nağdsız ödənişlərin 23 milyon 48 min manatı POS-terminallar vasitəsilə, 63 milyon 158 min manatı isə internet və digər ödəniş vasitələri üzərindən həyata keçirilib. Hazırda muxtar respublika üzrə 909-u təmassız olmaqla, 1590 POS-terminal, 8-i cash-in, 6-sı valyutadəyişmə funksiyalı olmaqla, 118 bankomat və 57-si MilliÖn terminalı olmaqla, 154 ödəniş terminalı fəaliyyət göstərir. 1 iyul 2022-ci il tarixə muxtar respublikada mövcud ödəniş kartlarının



sayı isə 292 min 689 ədəd təşkil edib.

Vurğulanıb ki, ötən dövr ərzində muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri ilə qarşılıqlı fəaliyyət təmin edilib, Naxçıvan Dövlət Texniki Kollecinin Bank işi ixtisasının hamiliyə verilməsi ilə bağlı təsdiq olunmuş tədbirlər planına uyğun fəaliyyətlər icra olunub, Mərkəzi Bankda və muxtar respublikada fəaliyyət göstərən digər banklarda təcrübə keçən tələbələrlə görüş təşkil edilib.

Tədbirdə bankların ilin birinci yarısının nəticələri haqqında slaydlar nümayiş etdirilib, çıxışlar dinlənilib.

***Naxçıvan Muxtar Respublikasının Turizm Departamentində keçirilən iclası giriş sözü ilə departamentin direktoru Əkbər Novruzov açaraq 2022-ci ilin ötən dövrü ərzində görülmüş işlər və keçirilən tədbirlər haqqında ətraflı məlumat vermişdir.***



Vurğulanmışdır ki, 2022-ci ilin birinci yarım ili ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası istiqamətində işlər davam etdirilmişdir.

Bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikasının turizm potensialının beynəlxalq aləmdə tanıdılması məqsədilə İsrail Respublikasının Təl-Əviv şəhərində keçirilən "Beynəlxalq Aralıq dənizi Turizm Bazarı" (IMTM 2022) sərgisində, Qazaxıstanın Almatı şəhərində keçirilən "KİTF 2022-Qazaxıstan Beynəlxalq Turizm Sərgisi"ndə və Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən, ən böyük və nüfuzlu beynəlxalq sərgilərdən biri hesab edilən Arabian Travel Market 2022 (ATM) beynəlxalq turizm sərgisində Turizm Departamentinin əməkdaşları iştirak etmişdir. 30 mart 2022-ci il tarixdə İsrailin Təl-Əviv şəhərində Azərbaycanın turizm nümayəndəliyinin Təl-Əviv ofisinin açılışı olmuş və "Turizm sahəsində əməkdaşlıq haqqında" saziş imzalanmışdır. 28 iyun 2022-ci il tarixdə Bakı Konqres Mərkəzində keçirilən İslam Əməkdaşlığı Təşkilatının Turizm nazirlərinin 11-ci konfransında iştirak edilmiş, muxtar respublikanın turizm potensialı videoçarxlar vasitəsilə tədbir iştirakçılarına nümayiş olunmuşdur.

Bildirilmişdir ki, 22-24 iyun 2022-ci il tarixlərdə Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi, Azərbaycan Turizm Bürosu əməkdaşlarının, Türkiyə, İran və Azərbaycanı təmsil edən turizm şirkətlərinin, media nümayəndələrinin və assosiasiyaların iştirakı ilə Naxçıvan Muxtar Respublikası üzrə "Nuh diyarı – Naxçıvan" adlı infotur təşkil olunmuşdur. Hesabat dövrü ərzində Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin təşəbbüsü ilə muxtar respublikada quş müşahidəçiliyi ilə əlaqədar məlumat və fotolar Azərbaycan Turizm Bürosunun dəstəyi ilə məşhur *www.birdingplaces.eu* saytına, Duzdağ turizm məhsulunun inkişaf etdirilməsi məqsədilə Duzdağ Fizioterapiya Mərkəzi haqqında məlumatlar "Wego" platformasına yerləşdirilmişdir. "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin təşkilatçılığı və dəstəyi ilə "AirGame Paragliding" Məhdud Məsuliyyətli Cəmiyyətinin təcrübəli paraşütçülərinin muxtar respublikaya səfərləri təşkil edilmişdir. Muxtar respublikada ilk dəfə olmaqla "Ağbulaq" İstirahət Mərkəzində və Əlincəqalanın zirvəsindən yamac paraşütünün test uçuşları uğurla həyata keçirilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

# Taxılçılığın inkişafı ilə bağlı qarşıda duran vəzifələrə həsr olunmuş müşavirələr keçirilib

*İyulun 7-də "Araz" Elm-İstehsalat Birliyinin təcrübə təsərrüfatında Naxçıvan Muxtar Respublikasında taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə qarşıya qoyulmuş vəzifələrə həsr olunmuş müşavirələr keçirilib.*

Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə icra hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə aidiyyəti dövlət orqanlarına müvafiq tapşırıqlar verib, şəhər və rayon icra hakimiyyətlərinin əkin strukturuna daxil olan torpaqların əkilməsinin diqqətdə saxlanılması, dəmyə torpaqlarda taxıl əkininin təşviq olunması kimi mühüm vəzifələr qarşıya qoyub.



İcra hakimiyyətinin başçısı qeyd edib ki, Naxçıvan şəhərində infrastrukturun bütün sahələri ilə yanaşı, kənd təsərrüfatı məhsullarının istehsalına, xüsusilə də taxılçılığın inkişafına daim dövlət qayğısı göstərilir. 2021-ci ilin payızında və 2022-ci ilin yazında, ümumilikdə, Naxçıvan şəhərində 992 hektar sahədə taxıl əkini həyata keçirilib. Bunun 664 hektarını buğda, 328 hektarını isə arpa təşkil edib. 992 hektar taxıl sahəsindən 2870 ton məhsul istehsal olunub. Tədarük edilən taxılın məhsuldarlığı 28,9 sentnerdir. İcra başçısı diqqətə çatdırıb ki, torpaq sahələrinin normaya uyğun suvarılması əkinçiliyin inkişafında mühüm əhəmiyyət kəsb edir. Naxçıvan şəhər ərazisində 1,1 kilometr kanal, 1,33 kilometr olmaqla, ümumilikdə, 2,43 kilometr, Tumbul və Qaraçuq kollektorlarında isə 1,37 kilometr ara arxı lildən təmizlənib.

Vurğulanıb ki, dövlət tərəfindən göstərilən hərtərəfli diqqət və qayğıya baxmayaraq, bu sahədə hələ də nöqsanlar mövcuddur. Naxçıvan şəhəri üzrə bələdiyyə mülkiyyətində olan 16 hektar əkinəyararlı torpaq sahəsində əkin aparılmayıb. Bunun 14 hektarı suvarılan, 2 hektarı isə dəmyə torpaqdır. Tumbul kəndində 4 hektar suvarılan, 2 hektar dəmyə, Qaraçuq kəndində 10 hektar əkinəyararlı torpaq sahəsi əkin üçün icarəyə verilməyib.

Mirsənani Seyidov kənd təsərrüfatının davamlı inkişafına göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq edib, bildirib ki, 2022-ci ilin payızlıq və növbəti ilin yazlıq taxıl əkini zamanı müşavirədə verilmiş tapşırıqlar əsas fəaliyyət istiqaməti kimi götürüləcək, qeyd olunan nöqsanların aradan qaldırılmasına ciddi nəzarət olunacaq.

* * *



*Şərur Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov açaraq bildirib ki, 2021-ci ilin payızında və 2022-ci ilin yazında, ümumilikdə, rayonda 4 min 38 hektar sahədə taxıl əkini həyata keçirilib. Bunun da 3 min 276 hektarını buğda, 762 hektarını isə arpa təşkil edib. Bu günə qədər rayon üzrə 3 min 900 hektar sahədə taxıl biçini aparılıb və bir neçə gün sonra biçin kampaniyası yekunlaşacaq. Məhsuldarlıq orta hesabla 40,8 sentner təşkil edir.*

Qeyd olunub ki, Şərur rayonunda taxılçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər bu sahədə mühüm nəticələrin əldə olunmasına şərait yaradıb. 150 milyon kubmetrlik Arpaçay su dəryaçasının, 470 subartezian quyusunun və 28 suvarma nasos stansiyasının istismarı imkan verir ki, rayonda bütün əkin sahələri müvafiq normalar əsasında suvarma suyu ilə təmin olunsun. Rayonda digər meliorativ tədbirlər də aparılır.

Diqqətə çatdırılıb ki, yaradılan şəraitə baxmayaraq, bu sahədə müəyyən nöqsanlar mövcuddur. Rayon üzrə 107 hektarı xüsusi mülkiyyətdə, 965 hektarı bələdiyyə mülkiyyətində, 230 hektarı isə dövlət mülkiyyətində olmaqla, ümumilikdə, əkinəyararlı 1302 hektar ərazi əkin dövriyyəsinə daxil edilməyib. Ötən dövrdə taxıl sahələrindən qazanılan məhsuldarlığa nəzər yetirdikdə dövlət tərəfindən görülən tədbirlərə və təsərrüfatçılara göstərilən dövlət dəstəyi müqabilində qazanılan nəticələr istənilən səviyyədə olmamışdır. Bunun da əsas səbəbi əkin sahələrində aqrotexniki qulluq tədbirlərinin lazımi səviyyədə aparılmamasıdır. Ötən il rayonun Şəhriyar, Püsyan, Xanlıqlar, Düdəngə, Zeyvə və Axaməd kəndlərində aparılan taxıl əkinlərinin əhatə etdiyi sahələrin torpaq münbitliyinin eyni olmasına baxmayaraq, təsərrüfatçıların bir hissəsinin əldə etdiyi məhsuldarlıq 65-70, bəzilərində isə 13-20 sentner təşkil etmişdir.

Kamal Cəfərov kənd təsərrüfatının davamlı inkişafına göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib, mövcud nöqsanların aradan qaldırılmasına qısa zamanda nail olunacağını vurğulayıb.

* * *



Ordubad rayonunda keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış edərək bildirib ki, Ordubad rayonunun 97899 hektar ümumi sahəsinin 30980 hektarı dövlət mülkiyyəti, 62200 hektarı bələdiyyə mülkiyyəti, 4719 hektarı isə xüsusi mülkiyyətdir. Rayonun 4981 hektar torpaq sahəsi suvarılandır. Rayon üzrə, ümumilikdə, 67 hektar deqradasiyaya məruz qalan torpaq sahəsi uçota alınmışdır. Qeyd edilib ki, 2022-ci ilin məhsulu üçün rayonda 1607 hektar sahədə taxıl əkilib, məhsuldarlıq 29 sentner olub. 2022-ci ilin məhsulu üçün 1 iyun 2022-ci il tarixə rayonda 1755 hektar sahədə yazlıq bitkilər əkilib.

İl ərzində məhsul istehsalçılarına subsidiyalar, mineral gübrələr, güzəştli kreditlər verilib, lizinq xidmətləri göstərilib, meliorasiya və irriqasiya tədbirləri həyata keçirilib. Son illərdə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə rayona ümumi dəyəri 1 milyon 271 min 942 manat olan 184 ədəd texnika gətirilib ki, bunun da 560 min 362 manatı ödənilib. Verilmiş plana vaxtında əməl olunub. 2022-ci ilin müvafiq dövründə lizinq yolu ilə vətəndaşlara 3 texnika satılıb. Əkin sahələri vaxtında suvarılıb, Aza gölündə 200000, Gilan gölündə 250000, Dəstə-1 gölündə 100000, Dəstə-2 gölündə 50000 kubmetr su ehtiyatı yaradılıb.

Vurğulanıb ki, 2022-ci ildə rayon üzrə 490 hektar torpaq sahəsi əkilməmiş qalıb. Onun 407 hektarı vətəndaşlara məxsus özəl pay, 83 hektarı isə bələdiyyə mülkiyyətinə aid torpaqlardır. Əkilməyən torpaq sahələrindən 35 hektarı hazırda payızda əkilməsi üçün şum altındadır, 83 hektar sahə isə daşlı-çınqıllıdır və məhsuldarlıq aşağı səviyyədə olduğu üçün əkilməmişdir. 372 hektar sahə isə arat üsulu ilə əkildiyindən ötən il suvarma suyunda yaranmış çətinlik səbəbindən əkilməyib.

Elşad Məmmədov Ordubad rayonunda kənd təsərrüfatının davamlı inkişafına göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Müşavirələrdə Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Bəhruz Bayramov, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev və "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vasif Məmmədov rəhbərlik etdikləri sahələrdə görülən işlər və qarşıda duran vəzifələr barədə çıxış ediblər.

**Xəbərlər şöbəsi**

*28 il ömür yaşayan Toğrul ömrünün gənc çağında həyatın sınaqları, çətinlikləri, ayrılıqları ilə mücadilə edə-edə ürəyi yorğun düşüb, ruhən qocalmışdı. O, həyatın ən böyük itkilərini gənc yaşında ard-arda yaşamışdı. Ailənin ilk övladı olaraq ata-ana itkisinin ağırlığı ilə bərabər qardaş-bacısının qayğı yükünü də öz çiyinlərinə yığmışdı. Ata-ana itkisi ürəyini yandırsa da, qardaş-bacısına təkcə qardaş yox, həm də ata-ana olmuşdu. Sonra isə Vətənə can oldu Vətən oğlu...*

*Əfsanəyə dönən ömürlər*

## Vətən fədaisi

İllərdir, gəlmək arzusunda olduğum Naxçıvana qədəm qoyarkən ilk üz tutduğum ünvan Toğrul Səyyad oğlu Məmmədovun bir zamanlar yaşadığı müqəddəs ocaq oldu. Uzun illərdir, qəhrəmanlığından sətir-sətir yazdığım Toğrul Məmmədovun evində onun adına guşəni görəndə o əsyaların xatirələri göz önümdə canlandı. Erkən yaşlarında ata-anasını itirən və Toğrulu özünə dayaq bilən qardaşı Üzeyir Məmmədovun gözlərinin dərinliyindəki hüznü, qardaş həsrətini duymamaq mümkün deyildi. Mən bu həsrəti çox duymuşdum, ancaq bu dəfə o həsrəti kədərli gözlərdən sətir-sətir oxudum. Dəfələrlə Toğrulun həyatından bəhs etmişəm. Hər dəfə bu həyata nəzər saldığımda Toğrulsuzluğun acısını daha dərindən hiss edirdim. Bu dəfə isə həsrətimin rəngi tam ayrıdır. Bu dəfə Toğrulun bir zamanlar yaşadığı evdə onun ömür kitabını səhifələyib, qəhrəmanlığından bəhs edən səhifələrə birini də əlavə edəcəyəm.



1988-ci il Günəşin gur şəfəqləri ilə isitdiyi iyul ayında nəfəsi ilə isitmişdi evini, ocağını Toğrul Məmmədov. Ata-anası ilk övlad kimi bağrına basdığı Toğrul dünyaya gəlişi ilə böyük ümidlərə, arzulara yelkən açmışdı. Görəsən, o arzuların içində iyulun 26-da Babək rayonunun Şıxmahmud kəndində dünyaya gələn bu oğlun bütün Azərbaycanın oğlu olması arzusu da yer almışdımı?

1994-cü ildə məktəbli kimi Babək rayon Şıxmahmud kənd tam orta məktəbinə qədəm qoyan Toğrulun bir gün nə vaxtsa Azərbaycanın bütövlüyü uğrunda qanının son damlasına qədər mənfur düşmənlə vuruşub, şəhidlik zirvəsinə çatacağını və o məktəbin fəxri, qürurlu olaraq xatırlanacağını heç kim təsəvvür etməzdi. Toğrul ürəyində pərvaz edən Vətən sevgisi ilə təhsilini 2002-ci ildən Heydər Əliyev adına Hərbi Liseydə davam etdirib. 3 il orada təhsil aldıqdan sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. Həmin məktəbi 2009-cu ildə AAHM-i leytenant hərbi rütbəsi ilə bitirib. İşinin peşəkarı olmaq yolunda atdığı addımlarla kifayətlənməyən Toğrul Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində 1 il ixtisasartırma kursu keçib. Qəhrəman şəhidimizin səngər həyatı 2010-cu ildə başlayıb. Hər zaman ön cəbhədə xidmət edən Toğrul dəfələrlə düşmən təxribatının qarşısını alıb. 2012-ci ildə baş leytenant hərbi rütbəsinə yüksələn Vətən oğlu qısa zamanda taqım komandiri vəzifəsindən xidmət komandiri vəzifəsinə yüksəlib.

Toğrulun alnına iki döyüş görüb, sonra şəhid olmaq yazılıbmış. 2014-cü ildə düşmən Ağdam istiqamətində təxribat törədən zaman Vətənin müdafiəsinə qalxanlardan biri də Toğrul olub. Həmin döyüşlərdə Azərbaycan Ordusunun müxtəlif rütbəli 13 hərbçisi şəhid olmuşdu. Toğrul həmin döyüşlərdə ayağından və çiynindən yaralanaraq şəhidliyin bircə addımlığından qayıdıb. Demək ki, onun qismətinə ilk zəfər tariximiz olan Aprel döyüşlərinin iştirakçısı olmaq da yazılıbmış. Neçə-neçə qəhrəmanlıq salnaməsi yazılan Aprel döyüşləri zamanı Toğrul da illərlə arzusunda olduğu Vətənin azadlığına töhfə verib. Həmin döyüşdə dost adlı uçmaz qalası yerləyeksan olub. Ağır yaralanan ən yaxın dostu Nəcməddin Savalanov ölümlə çarpışan zaman Toğrul Məmmədov onun həyata bağlanacağına ümid edib, ancaq o ümid puç olub.

Əzizini itirmək acısı Toğrula çox tanış idi. O, tabutun necə ağır bir yük olduğunu yaxşı bilirdi. Həyatının ən gözəl çağında, 18 yaşı olan zaman ana tabutu daşıyan bu gənc cəmi dörd il sonra ata tabutu daşımışdı. Əslində, o tabutda bütün gənclik arzuları cəm olan Toğrul həmin gündən sonra həyat yükünü çiyinlərinə yığmışdı. Bütün bu sınaqlar yetməzmiş kimi bir də dost tabutu daşıyan Toğrul o gün göz yaşları ilə torpağın köksünə dağ çəkmişdi. O an Toğrulun qəlbində ucalan fəryad düşmənə olan intiqamını daha da alovlandırmışdı. Həmin gündən sonra gözləri dost axtaran qəhrəmanın ürəyi qisas üçün döyünürdü. Sosial şəbəkədə Nəcməddin haqqında paylaşım edib "Qardaşım, sən mənim canımı apardın" yazan Toğrul, əslində, o cümlə ilə ruhunu dost məzarında əsir etdiyini dilə gətirmişdi. Ta ki düşməndən qisas alacağı günədək ruhu o məzarda əsir qalacaqdı.

2016-cı il iyul ayının 14-də Toğrul Bakıya çağırıldı və kapitan hərbi rütbəsinə layiq görüldüyü xəbərini aldı. Lakin o rütbəni daşımaq qəhrəmana qismət olmadı. Ağdama dönən Toğrul bilmədi ki, o gün şəhidlik məqamına çatacağı gündür. Elə həmin gün Ağdam rayonunun Baş Qərvənd kəndində düşmən yenidən atəşkəsi pozaraq təxribata əl atdı. Toğrul Məmmədov yerindəcə düşmənin layiqli cavabını verməyə nail olaraq həmin vaxt snayper atəşinə tuş gələn Toğrulun ömür və döyüş yolu tamamlandı.

Toğrul şəhid oldu... Təsəvvür edirsiniz bir bacı, bir qardaş üçün tək dayaqlarını, ata-ana yerinə sığındıqları böyük qardaşlarını itirmələri nə deməkdir? Şəbnəm və Üzeyir o xəbərlə yaralı ürəklərindən təkrar yaralanmışlar. Axı bu yük çox ağır idi. Onlar Toğrul kimi güclü deyildilər, ancaq möhkəm olmağa məcburdurlar. Necə ki Toğrul bacı və qardaşı üçün ayaqda qalmağı bacarmışdı, Şəbnəm və Üzeyir də Toğrulu şəhid adına layiq qarşılamaq üçün güclü olmalı idilər. Bütün Azərbaycana oğul, qardaş olan şəhid Toğrul Məmmədov 15 iyulda qürurla Naxçıvana gətirildi. Böyük izdihamla son mənzilə yola salınan Vətən oğlu Babək rayon Şıxmahmud kənd məzarlığında ata və anasının məzarları yanında torpağa tapşırıldı. Xalqın qüruru olan şəhid ata-anasının əbədi dünyasına da qürurla getdi. İllər öncə dost itkisi yaşayan Toğrulun əbədi gedişi onu sevənlərin ən böyük acısı olmuşdu. Onun dostlarından biri kapitan Daşqın Qədimov üçün Toğrulun şəhid olması ağır bir itki idi. Dostunun intiqamını alacağına söz verən Daşqın Vətən müharibəsində igidcəsinə döyüşərək verdiyi əhdə vəfalı çıxdı, Toğrulun intiqamını yağı düşməndən alıb əbədiyyətə qovuşdu. Beləcə, cənnət əbədi dostluqların əbədi ünvanına çevrildi.

Adının haqqını verən Toğrul elə hərbi xidmət zamanı da qoçaqlığı, zirəkliyi ilə seçilib. Şahin kimi düşmənin üzərinə şığıyan qəhrəman hərbi xidməti zamanı "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" və "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalları ilə təltif olunub. Kapitan Toğrul Səyyad oğlu Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə şəhadətindən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib. Toğrulun şəhid olduğu tarixdən illər ötsə də, nə özü, nə də sözü unudulmur. Son nəfəsində "Əsgərləri çıxarın", – deyən qəhrəman fədakar olmağın ucalığını hər kəsə bəyan edib. Getdiyi yolu örnək götürən hərbçilər də hər an fəda ola biləcəklərini əməlləri ilə sübut edirlər və edirlər də... Toğrul şəhid olduqdan sonra neçə-neçə Toğrullar doğulub. Onlardan sonuncusu Məmmədovlar ailəsinin son nümayəndəsidir. Üzeyir Məmmədov şəhid qardaşının adını öz övladına əmanət edib. Şəhid adını daşıyan körpə atasının ümididir. O evdə yenidən Toğrul böyüyür.

*Elə Vətən üçün gəldin dünyaya,*
*Sevginin ünvanı oldu bu Vətən.*
*Vətən səngərində ötən illərin,*
*Hər anı min ilə sanki oldu tən.*
*Həyatda çəkdiyin bütün həsrətin,*
*Məlhəmi bilirdin sən azadlığı.*
*Qəlbində intiqam əkib-biçirdin,*
*Tapdaqda gördükcə sən Qarabağı.*
*Gözündə yox idi qorxudan əsər,*
*Kükrəsən düşmənin ruhu əsirdi.*
*Vətənə azadlıq bəxş etməkçün,*
*Vətən qəhrəmanı, sən tələsirdin.*
*Avqust döyüşləri getdiyi zaman,*
*Sən döndün şəhidlər şəhidi kimi.*
*On üç qəhrəmanın şəhid olmağı,*
*Həmin vaxt yandırdı Toğrul, qəlbini.*
*"Bir qarış torpaqdan keçmərəm!" – deyib,*
*Aprel döyüşündə önə atıldın.*
*Qalib bir ordunun qəhrəmanı tək,*
*Həmin döyüşlərdə sən zəfər çaldın.*
*Ancaq qismətində şəhidlik vardı,*
*Torpağın köksünə damladı qanın.*
*Sinəni atəşə sipər elədin,*
*Toğrul, xilaskarı oldun Ağdamın.*

**Manya SƏXAVƏTQIZI**

*Gəncliyimiz, gələcəyimiz*

## İstedad və qayğıdan nur alan işıqlı sabahımız

*Bu gün ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərilir. Bunun nəticəsi kimi yeniyetmə və gənclərimizin istedad və bacarıqları üzə çıxarılır, onların həyatın müxtəlif sahələrində uğurlu fəaliyyəti yüksək uğurlarla nəticələnir.*



İstedadı ilə uğurlu nəticələr qazanan şagirdlərimizdən biri də Kamal Qafarovdur. O, 2006-cı ildə Naxçıvan şəhərində anadan olub. 2012-ci ildə Hüseyn Cavid adına 5 nömrəli tam orta məktəbin 1-ci sinfinə qəbul edilib. Hazırda Əkbər Ağayev adına 8 nömrəli məktəbin 11-ci sinfində təhsilini davam etdirir. Təhsil aldığı ötən müddətdə çalışqanlığı və fəallığı ilə seçilib. Kamalın son zamanlarda əldə etdiyi uğurlarla oxucularımızı yaxından tanış etmək üçün biz də onunla həmsöhbət olduq. Dedi ki, 2019-cu ildə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində STEAM ilə maraqlanıb. Naxçıvanda STEAM ilə bağlı keçirilən bütün tədbirlərdə fəal iştirak edərək bir neçə dəfə muxtar respublika birincisi və ikincisi olub. 2021-ci ilin dekabr ayında Bakı şəhərində keçirilən STEAM Azərbaycan festivalında muxtar respublikamızı "Lego Sumo" kateqoriyası üzrə təmsil edərək Azərbaycan üçüncülüyünə layiq görülüb. Həmçinin dünyanın ən böyük aerokosmik festivalı olan "Teknofest" də Naxçıvanı aqrar sənayeyə xeyirli olan "Heyvanların avtomatik yemlənməsi" qurğusu ilə təmsil edib. Kamal onu da bildirdi ki, Naxçıvanda ilk dəfə bu ilin iyun ayında keçirilən "STEAM təhsil festivalı"nda iştirak edərək "Lego Sumo" kateqoriyası üzrə muxtar respublika birinciliyinə layiq görülüb.

Müsahibim deyir ki, gələcək hədəfləri arasında bu ilin dekabr ayında Bakı şəhərində keçiriləcək "STEAM Azərbaycan festivalı"nda muxtar respublikamızı təmsil edərək ölkə çempionu olmaq, həmçinin Amerika Birləşmiş Ştatlarında keçirilən dünyanın ən böyük robot festivalı olan VEX-2022-də Naxçıvanı və eləcə də Azərbaycanımızı təmsil etmək durur: – Onu da qeyd edim ki, gələcəkdə sahiblənmək istədiyim peşə proqramlaşdırma sahəsidir ki, bunun özü də STEAM ilə əlaqəlidir. Bunun üçün ali təhsil almaq başlıca şərtdir. Ona görə də öncə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olmaq, daha sonra isə təhsilimi Almaniyanın Berlin şəhərində fəaliyyət göstərən Berlin Texniki Universitetində davam etdirmək istəyirəm. İştirak etdiyim, qalib olduğum bütün yarışlar üçün sevinc və qürur hissləri keçirirəm. Muxtar respublikamızı beynəlxalq arenalarda bundan sonra da daha yaxşı təmsil edəcəyimə inanıram.

Kamalın müəllimi Sevinc Səfərova deyir ki, o, hər zaman qabiliyyəti və yüksək qavrama bacarığı ilə seçilib. Şagirdinin onun etimadını doğrultduğunu fərəh hissi ilə qeyd edən müəllimin sözlərinə görə, Kamal həm təhsili, həm də tərbiyəsi ilə yoldaşlarına nümunədir: – Kamalın qazandığı uğurlar digər şagirdlərimiz üçün bir stimuldur. Biz məktəb kollektivi olaraq fəxr edirik ki, artıq üç şagirdimizin adı "Qızıl kitab"a yazılıb. İnanıram ki, Kamal gələcəkdə daha böyük uğurlar qazanacaq, muxtar respublikamızın adını ölkəmizdən kənarda da qürurla təmsil edəcək.

Bu gün Azərbaycan təhsilinin əsas məqsədlərindən biri istedadlı uşaqların qabiliyyət və yaradıcılıq imkanlarının aşkarlanması, inkişaf etdirilməsidir. Cəmiyyətimiz bir sıra məsələlərin həllini məhz beləlarindən gözləyir. Dövlətimizin təhsilimizə, istedadlı uşaqlara göstərdiyi qayğının bariz nümunəsidir ki, bu günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında" Sərəncamı ilə Kamal Qafarovun adı STEAM təhsil sahəsi üzrə Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüb. Kamal Qafarov ilə söhbətimiz zamanı onun hədsiz sevinc və minnətdarlıq hisslərinin şahidi olduq. O, istedadının belə yüksək qiymətləndirilməsinə görə dövlətimizə minnətdarlığını bildirərək biliyini daha da təkmilləşdirəcəyinə, təhsildə daha böyük uğurlar qazanmaq üçün bundan sonra da səylə çalışacağına söz verdi. Biz də Kamalı təbrik edir, ona gələcək həyatında böyük nailiyyətlər qazanmağı arzulayırıq.

**Aytac CƏFƏRLİ**

*Şagirdlərin asudə vaxtının səmərəli təşkili, innovativ təhsil metodu olan STEAM üzrə bilik və bacarıqlar əldə etməsi məqsədilə Ağbulaq İstirahət Mərkəzində növbəti "STEAM Yay məktəbi" təşkil olunub.*

## Növbəti *"STEAM Yay məktəbi"*nə start verilib



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə keçirilən "STEAM Yay məktəbi"nin açılış tədbirində Təhsil Nazirliyi Aparatının sektor müdiri Murad Babayev bildirib ki, şagirdlərin asudə vaxtının səmərəli keçirilməsi məqsədilə cari ilin 28-30 iyun aylarında muxtar respublikanın ümumtəhsil məktəblərinin 50-yə yaxın şagirdinin iştirakı ilə "STEAM Yay məktəbi" təşkil olundu. Bu gündən isə daha ikigünlük "STEAM Yay məktəbi"nə start verilir. Proqram üzrə şagirdlər STEAM düşüncəsi və metodikası, XXI əsr bacarıqları, fənlərarası əlaqə, layihə əsaslı öyrənmə, innovativ təlim metodikaları kimi istiqamətlərdə məlumatlarla tanış olacaqlar. Proqram əsasında şagirdlərə micro:bit vasitəsilə kodlama, müxtəlif mühəndis-dizayn həllərinin prototipləşdirilməsi və digər bu kimi istiqamətlərdə praktik biliklər veriləcək və təlimi uğurla başa vuran şagirdlər Təhsil Nazirliyi tərəfindən "STEAM Yay məktəbi"ndə iştirak etdiklərinə görə sertifikatla təmin olunacaqlar.

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının əməkdaşı Qəzənfər Abdullayev çıxış edərək bildirib ki, muxtar respublikanın ictimai həyatında əhəmiyyət daşıyan tədbirlərin həyata keçirilməsi həmkarlar təşkilatlarının qarşısında duran ümdə vəzifələrdən biridir. Yetişməkdə olan gənc nəslin inkişafına müsbət təsir edən "STEAM Yay məktəbi" də gələcəyə – insan kapitalına yatırım kimi əhəmiyyətli layihədir.

Tədbirdə STEAM üzrə təlimçi müəllim Ceyran Məmmədova və Fuad Babayevin də çıxışları olub. Qeyd olunub ki, növbəti "STEAM Yay məktəbi" zamanı şagirdlərin istifadəsi üçün 20 ədəd notebook, 5 ədəd 3D printer və çap materialı, 10 ədəd arduino və 20 ədəd micro:bit dəsti və STEAM layihələrinin hazırlanmasına lazım olan digər ləvazimatlar ayrılıb.

Qeyd edək ki, "STEAM Yay məktəbi"ndə şagirdlər micro:bit və arduino blokları ilə alqoritmik düşüncə və məntiq, proqramlaşdırma mövzularını öyrənməklə nəzəri biliklərini praktikada tətbiq edəcəklər. "Yay məktəbi"ndə robot proqramlaşdırması, robot texnologiyaların tədqiqində micro:bit və arduino bloklarının kodlaşdırılması praktik tətbiqlərlə izah olunacaq. Proqrama, həmçinin Ağbulaq İstirahət Mərkəzi ilə tanışlıq, müxtəlif idman oyunları ilə sərbəst vaxtların keçirmək üçün sənədli filmlərin nümayişi də daxildir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***



*Çox qədim bir sivilizasiyanın ecazkar izlərini və mədəni-tarixi irsini qoruyub saxlayan Naxçıvan Muxtar Respublikası zəngin coğrafi landşafı, təbii sərvətləri, tarixi, dini, təbiət abidələri, müalicəvi mineral suları, gursulu dağ çayları, rəngarəng gölləri və şəlalələri ilə zəngin turizm ehtiyatlarına malikdir. Bu gün sizi ecazkar gözəllikləri müşahidə göyərtəsində muxtar respublikanın fərqli bölgələrində yerləşən valehedici mənzərələrlə şöhrət çələnginə sahib şəlalələrə ekskluziv səyahətə dəvət edirik.*

*Turizm*

# Ekoloji turizmin ideal məkanı – *Naxçıvan şəlalələri*



Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində Zəngəzur silsiləsinin Ayçınqıl aşırımından 3707 metr hündürlükdən başlayan eyniadlı çayın üzərində ***Pəzməri şəlaləsi*** yerləşir. Su sərfi axınının sürəti və gücünə görə Azərbaycanda ən iri şəlalələrdən biri olan Pəzməri şəlaləsi kanionvarı dar dərələrdən keçərək əsrarəngiz təbiət abidəsi yaradır, şəlalənin nisbi hündürlüyü 16 metrə, ortaillik su sərfi saniyədə 1,34 kubmetrə çatır. Suyunun tərkibi hidrokarbonatlı, kalsiumlu olub, minerallaşma dərəcəsi 90 milliqram litrə bərabərdir. Əsasən bulaq və qar suları ilə qidalanan şəlalənin karbonatlı süxurlar üzərində nisbi hündürlüyü, təxminən, 18 metrdir. 40 metr hündürlükdən aramsız aşağı tökülən su qayalara çırpılaraq Günəş şüalarından isinən irili-xırdalı daşları parıldadır. Şəlalənin ətrafındakı dilsiz qayaların heykəlləşən görüntüsünü seyr edən hər kəs bu təbiət abidəsinin yaratdığı mənzərənin qarşısında heyranlıq duyur, gözləri önündə suyun daşlarla birgə yaratdığı qeyri-adi təbiət muzeyinin eksponatları, əsrlərin dərinliklərindən süzülüb gələn ulu tariximizin səhifələri canlanır.

Pəzməri çayının üzərindəki eyniadlı böyük şəlalədən başqa, bir neçə kiçik şəlalə də mövcuddur. Həmin şəlalələr burada olduqca gözəl bir mənzərə yaratmaqla yanaşı, həm də ərazinin turizm potensialından xəbər verir. Bu şəlalələrdən ən bolsulu olanı “Qaplan” adı ilə tanınır. Şəlalənin belə adlandırılması həmin ərazidə qaplanın çox olması ilə əlaqələndirilir. Çünki bu dağlar zəngin heyvanat və bitki aləmi ilə məşhurdur. Ana təbiət burada dağ keçisi, ayı, canavar, porsuq və digər heyvanların, o cümlədən müxtəlif meşə quşlarının yaşamasını təmin etmişdir. İlin yaz və yay aylarında ətrafda çayların və şəlalələrin səsi quşların nəqəratı ilə birləşib insana inanılmaz fərəh verən təbiət simfoniyası yaradır. Bu mahnıya şəlalələrin başladığı yüksəkliklərin çiləmə buludların, xəfif küləklərin yaydığı həzin musiqi sədalarını da, əlavə etsək, insan ruhunun qidası olan və heç bitməyən bənzərsiz səslərin qayalarda əks-sədasını zövqlə dinləyəcəksiniz. Bu səbəbdən muxtar respublika sakinləri ilə bərabər, vaxtaşırı, xüsusilə də ilin yaz və yay aylarında digər bölgələrdən də insanlar məhz bu şəlalələr kompleksini görmək və ətrafında hökm sürən atmosferi yaşamaq üçün buraya gəlirlər. Onu da qeyd edək ki, kənd turizminin ideal məkanı



olan Pəzməri kəndində və Pəzməri şəlaləsinə gedən yolda geniş quruculuq işləri aparılır. Ərazidə turizm infrastrukturunun vəziyyətinə və görülən işlərə baxış zamanı Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: ***“Kəndlərdə quruculuq işləri ona görə aparılır ki, insanlar rahat və firavan yaşasınlar. Həyata keçirilən tədbirlər məskunlaşmanı da artıracaqdır. Artıq Pəzməri turistik bölgəyə çevrilir. Kəndə turist axını sakinlərin istehsal etdiyi məhsulların alınmasına da səbəb olacaqdır ki, bu da əhalinin güzəranının daha da yaxşılaşması ilə nəticələnəcəkdir”.***

Pəzməri və Unus kəndləri arasında yerləşən ***Unus şəlaləsi*** dağlar arasından boylanan qayalardan qırılaraq aşağı tökülür. Pəzməri şəlaləsi qədər hündür olmasa da, qeyri-adi gözəlliyə malikdir. Şəlalənin suyu hidrokarbonatlı, natriumlu və kalsiumludur. Turistik kənd olan Unusa yolunuz düşsə, eyniadlı şəlaləni də görməyi unutmayın. Burada siz qayalara çırpılaraq pulcuq-pulcuq ətrafa səpələnən suların sonsuz axışını, çəmənliklərin və kolların bu suların musiqi sədaları altında rəqsini izləyər və oksigenlə zəngin havaya malik yaşıllıqlar qoynunda istirahət edərsiniz.

Yaşıllıqlarla örtülü dağlar gözəli Havuş kəndində 2100 metr hündürlükdə yerləşən ***Havuş şəlaləsi*** bu yerlərə xüsusi gözəllik verir. Yazdan başlayaraq noyabr ayına kimi bir neçə bulağın suyundan qidalanan Havuş şəlaləsi böyük qonaqpərvərliklə ziyarətinə gələnləri qarşılayır. Ətrafı həmərsin, yemişan, baldırğan, müalicəvi bitkilərlə zəngindir.

Şahbuz rayonunun Kükü kəndində Dərələyəz silsiləsinin cənub-qərb hissəsində qar suları ilə qidalanan ***Gurbulaq şəlaləsi*** yerləşir. Sıldırım qayalardan sızan sular 40 metr hündürlükdən bölünərək 3 istiqamətdə aşağı tökülür. Dağlarda qarın əriməsi və güclü yağışlar hesabına suyu bol və sərindir. Gurbulaq şəlaləsi Dərəboğazında əsrarəngiz mənzərə yaradır, gursulu bulaqlara həmrəylik edir, lalə, nanə, sarıçiçəyi, cacıq, çobanyastığının ətrini sularına hopdurub ətrafa çiləyir. Təmiz hava, sıldırım qayalardan və çoxsaylı bulaqlardan axan sərin su və müalicəvi bitkilər bu yerləri unikal turistik məkana çevirir.



Nəhayət, yolumuz Duzdağda yerləşən nadir və bənzərsiz ***Duz şəlaləsi***nədir. Duz laylarının altından axan su axıntıları yer səthinə çıxarkən buxarlanır, torpağa qarışan duzu da özü ilə bərabər, yer səthinə çıxarır və Duz şəlaləsini əmələ gətirir. Suyu xloridli, natriumlu, kalsiumludur. Bu əsrarəngiz şəlalə ilin bütün fəsillərindən və iqlim şəraitindən asılı olaraq fərqli şəkillərə düşür, qış aylarında buz bağlamaq yerinə duz bağlayır, yağıntılar olmadıqda duz çöküntüləri quruyaraq ağ örpəyə bürünmüş gəlin kimi ərazidə bənzərsiz bir təbiət abidəsi yaradır. Dağlara səyahət etməyi sevənlər bu yerlərdə irili-xırdalı “daş akvariumlar”la qarşılaşacaq, duzla örtülən və Günəş şüalarından parlayan daşların üzərində ulu tariximizin izlərini görəcək və minilliklərin naxışlarını qoruyub saxlayan su-daş, qaya harmoniyasına heyran qalacaqlar.

Bu şəlalələrlə bərabər, Ordubadda və Şahbuzda onlarla kiçik şəlalələr də var ki, onlar da əsrarəngiz mənzərələri ilə sizlərin yolunu gözləyir.

*Beləliklə, Azərbaycanda, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında təbiət abidələrinin tanıdılması, turizm ehtiyatlarının öyrənilməsi, yeni turizm marşrutlarının müəyyən edilməsi, kənd turizmi və ekoturizmin inkişafına yönəlmiş fəaliyyətlər turizm potensialının artırılmasına və regionda turizmin davamlı inkişafına zəmin yaradır.*

**Fizzə MƏMMƏDOVA**
***AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun***
***Hidrogeologiya və mineral sular laboratoriyasının müdiri, dosent***

## Çağırışçılar müddətli həqiqi hərbi xidmətə yola salınır

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən çağırışçılar müddətli həqiqi hərbi xidmətə yola salınır. Azərbaycan Respublikasının Prezidenti cənab



İlham Əliyevin 2022-ci il iyunun 1-də imzaladığı “Azərbaycan Respublikası vətəndaşlarının 2022-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Sərəncama əsasən 2004-cü ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1987-2003-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları müddətli həqiqi hərbi xidmətə göndərilir.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə və şöbələrində çağırışçılar təntənə ilə yola salınır. Bu münasibətlə keçirilən mərasimlərdə əvvəlcə Dövlət Himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban verən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən çağırışçıların xidmət yerlərinə göndərilməsi prosesi iyulun 30-dək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Səyyar sərgi-satışlar davam etdirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən artıq 2 aydır ki, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən muxtar respublikada yerləşən turistik istirahət mərkəzlərində istedadlı qadınların əl işlərindən ibarət səyyar sərgi-satışlar təşkil edilir. Bu tədbirlərin davamı kimi ötən istirahət günü Ordubad rayonunda yerləşən



“Dübəndi” ailəvi istirahət məkanında növbəti səyyar sərgi-satış təşkil olunmuşdur.

Sərgi-satışda sənətkarlıq nümunələri, o cümlədən bəzək əşyaları, toxuma, tikmə, dekorativ iş, muncuqla, gipslə, mislə, duzla hazırlanan əl işləri, taxta üzərində oyma, taxta üzərində yandırma, xalça, dekorativ, tikmə, sulu və yağlı boya ilə işlənmiş tablolar sərgilənmişdir. Sərgi-satışda 32 müəllifin 500-dən artıq əl işi sərgilənmiş, 7 müəllifin 222 manat dəyərində 46 əl işi satılmışdır. Qeyd edək ki, istirahət məkanlarında 12 dəfə səyyar sərgi-satış təşkil olunmuş, minlərlə sənətkarlıq nümunələri sərgilənmiş, ümumilikdə, 57 müəllifin 3921 manat dəyərində 535 əl işi satılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ildə taxıl biçininin yekununa dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/ hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 992 | 992 | 2870 | 28,9 |
| 2. | Şərur rayonu | 4038 | 4038 | 16484 | 40,8 |
| 3. | Babək rayonu | 11094 | 11094 | 35308 | 31,8 |
| 4. | Ordubad rayonu | 1607 | 1607 | 4663 | 29,0 |
| 5. | Culfa rayonu | 5711 | 5711 | 17007 | 29,8 |
| 6. | Kəngərli rayonu | 6056 | 6056 | 18064 | 29,8 |
| 7. | Şahbuz rayonu | 1527 | 1527 | 4081 | 26,7 |
| 8. | Sədərək rayonu | 2441 | 2441 | 8941 | 36,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **33466** | **33466** | **107418** | **32,1** |

***İtmişdir***

“Gəmiqaya Şirkəti” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus Mercedes Benz AXOR 3340 yük avtomobilinin arxa 85 AD 445 dövlət qeydiyyat nişanı itdiyindən etibarsız sayılır.

***

“Gəmiqaya Şirkəti” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus Mercedes Benz AXOR 3340 yük avtomobilinin arxa 85 AE 097 dövlət qeydiyyat nişanı itdiyindən etibarsız sayılır.

***

Babək rayon Didivar kənd sakini Qələndərova Könül Nəcəf qızının adına olan JN-319[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

**ŞƏRQ** *qapısı*
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Gülcamal Tahirova
*Qəzet redaksiyanın kompüter ində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1500. Sifariş № 657